**Bernard Şlink**

# *Qiraətçi*

Tərcümə edənlər:
Ferican Kuliyeva
Cəlil Cavanşir

QANUN NƏŞRİYYATI

**Bernhard Schlink**

# *Der Vorleser*

Professor ailəsindən olan yeniyetmə oğlanla yaşlı qadın arasında gözlənilməz eşq məcərası yaşanır. Qadının qəfil, xəbər-ətərsiz şəhərdən yoxa çıxması bu macəranı yarıda qırır. Səkkiz il sonra Hüquq fakültəsinin sonuncu kursunda oxuyan oğlan həmin qadını yenidən – nasist cinayətkarlarına qarşı keçirilən məhkəmə prosesində görür. Həm də qadın konslagerinin keçmiş nəzarətçiləri arasında...

Çağdaş alman yazıçısı Bernard Şlinkin "Qiraətçi" (1995) romanı sevgi hekayəsindən daha artıqdır. Əsər tarix, günah və vicdan haqqında dərin düşüncədir...

**Bernhard Schlink DER VORLESER**
**Bernard Şlink QİRAƏTÇİ**

Janr: roman
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 208

Naşir: Şahbaz Xuduoğlu
Tərcümə edənlər: Ferican Kuliyeva
Cəlil Cavanşir
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-198-1

© Qanun Nəşriyyatı, 2011; 2026
© 1995 by Diogenes Verlag AG Zürich

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

# I HİSSƏ

## 1

On beş yaşım olanda sarılığa tutulmuşdum. Xəstəliyim payızda başlasa da, bir də bahar gələndə yaxamdan əl çəkmişdi. Köhnə ilin günləri get-gedə soyuyub qaranlıqlaşdıqca, mən zəifləyirdim. Ancaq yeni il ərəfəsində, vəziyyətim yaxşılığa doğru nisbətən dəyişməyə başladı. Yanvar mülayim keçdiyindən, anam yorğan-döşəyimi balkona sərmişdi. Mən səmaya, günəşə baxırdım, buludları seyr edirdim, həyətdə oynayan uşaqların səsini dinləyirdim. Fevralın ilk axşamlarının birində bayırdan eşidilən qaratoyuq səsi hələ də yaddaşımdan silinməyib.

Sağalandan sonra ağına düşdüyüm ilk yol məni Blümenştrassedən Banhofştrasseyə apardı. Biz Blümenştrassedə ötən əsrin sonlarında tikilmiş, massivdə yerləşən binanın üçüncü mərtəbəsində yaşayırdıq. Oktyabr ayının bir bazar ertəsi məktəbdən evə qayıdırdım, birdən yoldaca məni öyümək tutdu. Neçə gündü ki, hal-

sızdım. Nə vaxtsa bu cür zəiflədiyim yadıma gəlmirdi. Addımlarımı çətinliklə atırdım. Evə qalxanda, ya məktəbdə pilləkənləri çıxanda ayaqlarımı ardımca güclə sürüyürdüm. İştaham da küsmüşdü. Hətta masanın arxasına ac otursam da, bir az keçəndən sonra məndə yeməyə qəribə ikrah hissi yaranırdı. Səhərlər oyananda ağzımda quruluq olurdu, mənə elə gəlirdi ki, bədən üzvlərim vücudumdan ağır və mütənasib olmayan yük kimi sallanıb. Zəifliyimdən utanırdım. Xüsusilə, öyüməyə başladığım vaxtlarda daha çox sıxılırdım. Həyatda ilk dəfə idi ki, başıma belə bir iş gəlirdi. Birdən ağzım öz-özünə dolmağa başladı, mən ağzımdakıları udmağa çalışdım, dodaqlarımı bərk-bərk sıxıb əlimlə tutdum, ancaq birdən qusmaq hissi mənə güc gəldi və mədəmdəki möhtəviyyatın hamısı barmaqlarımın arasından axaraq yerə töküldü. Binaya söykənərək, ayaqlarımın həndəvərinə axmış qusuntuya baxdım, mədəmdən şəffaf rəngli selik gəlirdi.

Köməyimə gələn qadın mənimlə kobud rəftar elədi. Əlimdən tutdu, binanın qaranlıq küçə qapısından keçirərək məni həyətlərdən birinə gətirdi. Yuxarıda bir pəncərədən o birinə zivə çəkilmişdi, paltarlar açıq havada yellənirdi. Həyətdə odun qalaqlanmışdı, qapısı açıq olan emalatxanadan mişar səsi gəlirdi, taxta qırıntıları toza qarışaraq havada uçuşurdu. Həyət qapısının yanında su kranı var idi. Qadın kranı açdı, əvvəlcə əllərimi yudu, sonra suyu ovuclarına doldurub üzümə çırpdı. Mən üzümü dəsmalla quruladım.

– O birini də sən götür!

Kranın yanında iki vedrə var idi, qadın birini götürüb su ilə doldurdu. Mən də ikinci vedrəni doldurub onun arxasınca binanın küçə qapısına doğru addımladım. O, əlindəki vedrəni üzüaşağı qolaylayaraq, suyu şırıltıyla küçə səkisinə boşaltdı, qusmağım yuyularaq yoldakı qanova töküldü. Qadın əlimdəki vedrəni də aldı, suyu səkinin üstünə ikinci dəfə də axıdıb həmin yeri tərtəmiz yudu.

Sonra belini dikəldib üzümə baxdı, ağladığımı gördü.

– Ay oğlan, – təəccüblə dedi, – ay oğlan...

O məni özünə sıxdı. Boyda ondan elə də hündür deyildim, sinəsini sinəmdə hiss edirdim, təmasımızın yaxınlığından öz nəfəsimdən gələn kəsif qoxunu və onun təzə tər iyini duyurdum, özümü itirmişdim. Ancaq daha ağlamırdım.

O, harada yaşadığımı soruşdu, vedrələri küçə qapısına qoyub məni evimizə apardı. Yanaşı addımlayırdıq, bir əlində portfelim vardı, o biri əlilə də qolumdan yapışmışdı. Banhofştrassedən Blümenştrasseyə gedən yol elə də uzun deyildi. Qadın tez və qətiyyətlə yeridiyindən, sürətli addımları məni ondan geri qoyurdu. Evimizə çatanda sağollaşıb getdi.

Həmin gün anam evə həkim çağırdı, mənə sarılıq diaqnozu qoydular. Fürsət tapan kimi, anama köməyimə gələn həmin qadın haqqında danışdım. Heç ağlıma da gəlməzdi ki, bir gün onun yanına öz xoşumla getməli olacağam. Anam təkid etdi ki, sağalıb ayağa duran kimi gedib həmin qadına gül alım, özümü ona

təqdim edib təşəkkürümü bildirim. Elə bu səbəbdən, fevralın son günlərinin birində yolumu Banhofştrassedən salmalı oldum.

## 2

Bu gün həmin bina, artıq Banhofştrassedə yoxdur. Onun nə vaxt, nə üçün söküldüyünü də bilmirəm. Uzun illərdir ki, mən artıq öz doğma şəhərimdən uzaqdayam. Yetmişinci və ya səksəninci illərdə tikilmiş yeni bina beş mərtəbədən və çardağın altında hörülmüş geniş çəpəki tavanlı mansarddan ibarət idi. Bu mansard öz inşaedilmə quruluşuna görə erkerlərdən və balkonlardan seçilirdi, üzünə çəkilmiş suvaq əntiqə malalanmışdı. Qapının üstünə vurulmuş çoxlu zəng düymələri bu binada xeyli xırda və iç-içə mənzillərin yerləşdiyindən xəbər verirdi. Belə mənzillərə adamlar köçür və sonra da çıxıb gedirlər, eynən maşın kirayələyib, sonra qaytardıqları kimi. İndi birinci mərtəbədə komputer mağazası var: əvvəllər orada məişət-kosmetika dükanı, ərzaq mağazası və videoteka yerləşirdi.

Köhnə bina isə eyni hündürlükdə olan dörd mərtəbədən ibarət idi: birinci mərtəbə almazla cilalanmış silikat daşdan tikilmişdi, üstdəki üç mərtəbə isə əla keyfiyyətli kərpicdən hörülmüşdü, erkerləri, eyvanları və qumdaşı ilə haşiyələnmiş pəncərə çərçivələri var idi. Birinci mərtəbəyə və pilləkənlərin başına aparan bir neçə kiçik pillə qoyulmuşdu, bu pillələr aşağı hissə-

dən geniş olsa da, yuxarıya qalxdıqca ensizləşir, hər iki tərəfdən divarlarla əhatələnirdi, həmin divarlara aşağıya doğru getdikcə ilbiz qını kimi burulan dəmir sürahilər pərçimlənmişdi. Qapının yan tərəflərində sütunlar vardı və epistilin künclərindən Banhofştrasseyə tərəf iki aslan heykəli boylanırdı: biri sağa, biri isə sola. O zaman qadının məni yuyunmaq üçün apardığı, kranın olduğu küçə qapısı isə köndələn idi.

Bu bina hələ ilk uşaqlıq illərimdən diqqətimi özünə çəkmişdi. Çünki o, küçədəki evlərin hamısından böyük idi. Elə bilirdim, bina daha da genişlənsə və ağırlaşsa, qonşu binalar yana duracaq və yerlərini bu əzəmətli tikiliyə verəcəklər. Mən bu binanın suvaqla işlənmiş, güzgülərlə və şərq naxışları ilə bəzədilmiş, pillələrində bürüncdən düzəldilmiş və parlayana qədər cilalanmış haşiyələri saxlayan pilləkənlərini təsəvvürümdə canlandırmağı sevirdim. Elə bilirdim ki, bu gözəl və səliqə ilə işlənmiş evdə ancaq eynilə bu cür səliqəli, kübar təbiətli və nəcib insanlar yaşaya bilər. Amma zaman keçdikcə, binanın rəngi yanından ötən parovozların tüstüsündən qaraldığından, artıq bu evin sakinlərini qəmgin, əcaib, hətta lal-kar, ya da qozbel və çolaq təsəvvür edirdim.

Sonralar bu nəhəng bina dəfələrlə yuxuma girirdi. Gördüklərimin hamısı da bir-birinə bənzəyirdi – eyni yuxunun və mövzunun dəyişkən təsvirləri kimi. Görürdüm ki, tanımadığım bir şəhərdə gəzirəm və gözümə bir bina dəyir. O mənə yad olan kvartaldakı tikililərlə eyni sırada dayanıb. Yoluma davam edirəm, çaşıb qal-

mışam, çünki bina tanışdır, ancaq şəhərin bu səmtindəki kvartalı tanımıram. Daha sonra beynimə batır ki, mən onu daha əvvəl başqa yerdə görmüşəm. Lakin o an mən doğma Banhofştrassedə yox, başqa bir şəhərdə gəzirəm. Deyək ki, yuxuda Romadayam, mən binanı indi orada görürəm və birdən xatırlayıram ki, ona daha əvvəl Berndə rastlamışam. Yuxumda canlandırdığım bu xatirələr mənə təsəlli verir: bu evi yad mühitlərdə görmək, köhnə tanışımla tanımadığım bir yerdə illər sonra qarşılaşmaqdan daha az təəccüblü görünür. Mən geri dönürəm, binaya qayıdıram və pilləkənlərlə yuxarı qalxıram. İçəri girmək istəyirəm. Qapının zəngini basıram.

Əgər binanı hardasa şəhər kənarında görürəmsə, onda yuxum çox çəkir, yaxud da həmin yuxunu daha sonra tam təfsilatıyla, dəqiq xatırlaya bilirəm. Maşın sürürəm. Məndən sağ tərəfdə qalan bina diqqətimi çəkir. Yoluma davam edirəm, əvvəlcə ilk növbədə beynimi bir sual qurcalayır: necə olur ki, yeri şəhər səmtində olan bu tikili anidən açıq düzəngahda peyda olur? Daha sonra ağlıma gəlir ki, mən onu daha əvvəl də burada görmüşəm və bu məni ikiqat çaşdırır. Bu binanı harada gördüyümü xatırlayanda, sükanı döndərib geri qayıdıram. Yuxuda getdiyim yol həmişə bomboşdur: təkərləri mələdərək, maneəsiz halda maşını geri döndərirəm və yüksək sürətlə qayıdıram. Gecikməkdən qorxub tələsik şütüyürəm. Nəhayət, binanı görürəm. Ətrafı əkinəcəklə örtülüdür – Pfalsda onu çovdar zəmiləri və üzümlüklər, Provansda isə lavanda kolları dövrələyir. Yeri düzən-